# Bu gün Azərbaycandan modul tipli daha 20 ev Türkiyəyə yola salınıb



Türkiyə Respublikasında baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycan Respublikasının şəhər, rayon icra hakimiyyətləri tərəfindən hər gün qardaş ölkəyə humanitar yardımlar göndərilir. Hazırda fəlakət zonasında evsiz-eşiksiz qalmış insanların isti sığınacaqlarla təmin edilməsi ən vacib məsələlərdən biridir.

AZƏRTAC xəbər verir ki, bu məqsədlə Mingəçevir, Kürdəmir, Goranboy, Şirvan, Cəlilabad və Tərtər icra hakimiyyətlərinin sifarişi ilə hazırlanmış daha 20 ədəd ev qardaş ölkəyə yola salınıb. Həftənin sonunadək Azərbaycanın şəhər və rayon icra hakimiyyətləri tərəfindən 90 ədəd müasir modul tipli evin hazırlanaraq mərhələli şəkildə Türkiyəyə göndərilməsi nəzərdə tutulub.

Qısa müddətdə və yüksək keyfiyyətlə hazırlanmış 1 və 2 otaqlı belə evlərdə 10-12 nəfərin yaşaması üçün lazımi şərait yaradılıb.

Goranboy Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Şamxal Həsənov jurnalistlərə açıqlamasında söyləyib: "Qardaş ölkədə yaşanan hadisələr bizi dərindən sarsıtdı. Zəlzələdən xəsarət alan vətəndaşların və on minlərlə şəxsin ölümü bizi kədərləndirdi. Azərbaycan tərəfindən Türkiyəyə edilən yardımlara dəstək olaraq Goranboy Rayon İcra Hakimiyyəti də öz borcunu yerinə yetirərək modul tipli beş ev sifariş edib. Bu yardımlar davamlı olacaq. Türkiyənin yanında olmaq millət olaraq bizim vəzifəmizdir".

Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini Ağali Kərimli Türkiyədə baş verən zəlzələ nəticəsində həlak olanlara Allahdan rəhmət, yaralılara tezliklə şəfa diləyib. "Bizə məlumat verildi ki, zəlzələ bölgəsində ən çox ehtiyac çadırlaradır. Bununla əlaqədar olaraq modul tipli dörd ev hazırladıq. Hər birində 14 nəfər olmaqla 60-a yaxın insan müvəqqəti olaraq bu evlərdə rahat şəkildə yaşaya biləcək", - deyən Ağali Kərimli əlavə edib ki, Kürdəmir Rayon İcra Hakimiyyəti tərəfindən bu yardımlar göndərildikdən sonra rayon ictimaiyyəti tərəfindən də yardımlar davam etdiriləcək. "Rayonun şəhid ailələri və qaziləri də yardımlarda iştirak edirlər. Onlar zəlzələdən zərərçəkmiş bacı-qardaşlarımıza könüllü olaraq öz yardımlarını əsirgəmirlər. Biz Türkiyənin yanındayıq və yardımlarımız da davamlı olacaq", - deyə o qeyd edib.

Tərtər Rayon İcra Hakimiyyətinin birinci müavini Elvin Umudov bildirib ki, qardaş Türkiyədə baş verən zəlzələ bütün Azərbaycanı, o cümlədən Tərtər sakinlərini dərindən sarsıdıb. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Türkiyəyə başlayan humanitar yardımlara bütün dövlət orqanları qoşulub. Tərtər rayon sakinləri də birlik nümayiş etdirərək isti geyimlər, yataq dəstləri və ərzaq toplayaraq 20 ton məhsulu bir neçə gün əvvəl Türkiyənin Gəncə şəhərində yerləşən konsulluğuna təhvil veriblər. Yardımlar Türkiyənin zəlzələdən ən çox zərərçəkmiş bölgəsi olan Kahramanmaraşa göndərilərək ehtiyacı olanlara paylanılıb.

"Bu gün isə Tərtər Rayon İcra Hakimiyyəti tərəfindən modul tipli dörd ev qardaş ölkə Türkiyəyə göndərilib. Bizim Türkiyəyə yardımlarımız davam edəcək", - deyə Elvin Umudov vurğulayıb.

Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Məharət Mustafayev deyib: "Türkiyədə baş verən zəlzələ nəticəsində zərərçəkmiş vətəndaşlara yardım məqsədilə isti geyimlər, elektrik avadanlıqları və digər lazımi əşyalar göndərmişik. Türkiyəyə yardımlarımız davam edəcək. Şirvan Şəhər İcra Hakimiyyəti olaraq bugünkü yardımlardan sonra modul tipli daha dörd ev Türkiyədə zərərçəkmiş bölgələrə göndəriləcək".

Qeyd edək ki, fevralın 13-də modul tipli evlərdən 4-ü Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən yola salınıb.

Həmçinin İH-lər tərəfindən fəlakətin ilk günlərindən ziyan çəkmiş əhaliyə lazım olan isti paltar, yataq dəstləri, müxtəlif ərzaq və sənaye məhsulları, dərman preparatları, qızdırıcılar, generatorlar, çadırlar alınaraq qardaş ölkəyə göndərilir. İndiyədək 57 şəhər və rayon icra hakimiyyəti tərəfindən təşkil olunan humanitar yardım Türkiyə Respublikasının Kahramanmaraş, Malatya, Adıyaman və digər bölgələrinə yola salınıb.

Şəhər və rayon icra hakimiyyətləri tərəfindən təbii fəlakət bölgəsinə humanitar yardımların göndərilməsi bundan sonra da davam etdiriləcək.